# Tarixi zəfərimiz uzun illərin əsas yaradıcılıq mövzusu olacaq



**Fərhad BƏDƏLBƏYLİ,**
**Xalq artisti, professor:**

– Son bir ildə həyatımızın, bəlkə də, ən işıqlı dövrünü yaşadıq. Vətən müharibəsində möhtəşəm Qələbəmiz, uzun illərdən sonra Qarabağın işğalına son qoyulması, mədəniyyətimizin incisi olan Şuşanın azad edilməsi fonunda yaşadığımız bəxtiyarlıq necə də şirin imiş. Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin başçılığı altında şanlı ordumuzun, eləcə də bütün Azərbaycan xalqının bu tarixi hadisələrdəki rolu hələ bundan sonra neçə-neçə kitabların, sənət əsərlərinin mövzusu olacaq.

Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunması xüsusilə önəmlidir. Möhtərəm Prezidentimizin dediyi: “Əziz Şuşa, sən azadsan! Biz qayıtmışıq. Biz səni dirçəldəcəyik” sözləri dilimizin əzbərinə çevrilərək, reallaşır. Bu istiqamətdə görülən böyük quruculuq və bərpa işləri göz qabağındadır. Vaxtilə yalnız arzu etdiyimiz Şuşada festivalların, konsertlərin, sərgilərin, görüşlərin keçirilməsi indi həyatımızın gerçəkliyinə çevrilib.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən Şuşadakı böyük layihələrdə biz ruh yüksəkliyi ilə yaxından iştirak edirik. Şuşaya hər səfərimiz isə olduqca zəngin təəssüratlar doğurur.

Şuşanın rəmzinə çevrilmiş Xarıbülbül – həm də mədəniyyətimizdə möhtəşəm Beynəlxalq Musiqi Festivalı kimi əbədiləşdi və əminik, bu festival davamlı olacaq, yeni ənənələr yaradacaq. Bu festival, eyni zamanda, digər mədəniyyət tədbirlərinin keçirilməsinə də yol açdı. Vaqif Poeziya Günləri, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı bunun bariz sübutudur. Bunlar hamısı bizim mədəniyyətimizin böyüklüyünü nümayiş etdirir.

Bu il bizim üçün daha bir hadisə ilə əlamətdardır. Doğma ocağımız olan, Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynayan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasınnın 100 illik yubileyi həm respublika, həm də beynəlxalq musiqi ictimaiyyəti tərəfindən yüksək səviyyədə qeyd edildi. Möhtərəm Prezidentimizin bununla bağlı sərəncam imzalaması, Musiqi Akademiyasının əməkdaşlarının fəxri adlarla, orden və medallarla, prezident təqaüdləri ilə təltif edilməsi, həmçinin Qəbələ Beynəlxalq Musiqi Festivalının bu yubileyə həsr olunması son dərəcə önəmlidir. Eyni zamanda, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının proqramında bizim məzunlarımızın, müəllim-tələbə heyətinin iştirakı Bakı Musiqi Akademiyasının respublikanın musiqi həyatındakı aparıcı rolunu bir daha sübut edir.

Bu il həm də əziz Prezidentimiz İlham Əliyevin şərəfli yubileyi – 60 yaşı qeyd edildi. Əlbəttə, bu tarix hər bir insanın həyatında müəyyən bir hesabat mərhələsidir. Bu baxımdan İlham Əliyevin həyat və fəaliyyətinə nəzər salsaq, onun həm Vətənimiz üçün, həm də dünya miqyasında, nə qədər böyük işlər gördüyünün şahidi olarıq. Prezidentliyi dövründə İlham Əliyev Azərbaycanın siyasi, iqtisadi yüksəlişini təmin etməklə yanaşı, sözün əsl mənasında, tarixi zəfərə imza atdı. Uzun illər boyu işğal altında olan torpaqlarımızın azad olunması məhz onun rəhbərliyi ilə reallaşdı. Buna görə biz bütün arzularımızı, amallarımızı gerçəkləşdirən bir insan kimi ona minnətdarıq. Tanrı onu qorusun!

Dövlət başçımızın dediyi kimi , bizim bütün qələbələrimizin əsasında xalqımızın birliyi, həmrəyliyi dayanır. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə xalqımızı təbrik edir, dövlətimizə əmin-amanlıq arzulayıram.

Xalq qəzeti .- 2021.- 31 dekabr.- S.5.